**“KAPİTAL BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 1,000,000 (bir milyon) ədəd faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

**2026**

# M Ü N D Ə R İ C A T


BƏYANAT ........ 3

XÜLASƏ ........ 4

1. Xəbərdarlıqlar ........ 4
2. Emitent haqqında məlumat ........ 4
3. Qiymətli kağızlar haqqında məlumat ........ 9
4. Risk faktorları ........ 10
5. Təklif ........ 11

İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT ........ 14

6. Emitentin auditorlar barədə məlumat ........ 14
7. Emitent barədə məlumat ........ 15
8. Emitentin biznesinin icmalı ........ 16
9. Digər təşkilatlarda iştirak ........ 18
10. Tendensiyalar barədə məlumat ........ 19
11. Gəlir proqnozu: ........ 20
12. Emitentin idarəetmə və nəzarət orqanları ........ 20
13. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar: ........ 24
14. Emitentin maliyyə məlumatları ........ 25
15. Müqavilələr ........ 35

BAZA EMİSSİYA PROSPEKTİ ÜZRƏ İSTİQRAZLAR HAQQINDA TƏLƏB OLUNAN MƏLUMAT ........ 36

16. İstiqrazlar haqqında ümumi məlumat ........ 36

**BƏYANAT**

**BAZA EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ BAZA EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1.1. Bu Baza emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında” Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

1.2. “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 1,000,000 (bir milyon) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların Baza emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**“Kapital Bank” ASC-nin İdarə Heyətinin Sədri,**
**Baş İcraçı direktor**
**Hüseynov Fərid Arif oğlu**

**Tarix: 09.06.2026**

**“Kapital Bank” ASC-nin İdarə Heyətinin üzvü,**
**Baş Maliyyə İnzibatçısı**
**Məmmədov Emin Ağaverdi oğlu**

**Tarix: 09.06.2026**

# XÜLASƏ

**1. Xəbərdarlıqlar**

**1.1.** Aşağıdakı məzmunda xəbərdarlıq:

1.1.1. Bu sənəd baza emissiya prospektinin giriş hissəsidir;

1.1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun baza emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

1.1.3. Baza emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman baza emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

**2. Emitent haqqında məlumat**

**2.1 Emitentin tam adı**: "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Emitent)

**2.2 Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr., ev 153, 687-ci məhəllə, Port Baku Tower 2, Açıq Səhmdar Cəmiyyəti. Emitent 10 iyul 2006-cı il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən hüquqi şəxsin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında 19 nömrəli şəhadətnamə ilə "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti adı ilə qeydiyyata alınmışdır. Emitent Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müddətsiz olaraq verilmiş 14 may 2025-ci il tarixli, 244 nömrəli bank lisenziyası əsasında fəaliyyət göstərir.

**2.3 Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:** Daim inkişaf edən rəqəmsal transformasiya dünyasında Emitent aşağıdakı strateji məqsədləri hədəfləmişdir:

- Pərakəndə bank məhsulları və xidmətləri bazarında liderliyi qorumaq;
- İri dövlət layihələri çərçivəsində daha geniş əməkdaşlıqlar qurmaq;
- KOS və mikro sahibkarlıq üzrə bank məhsulları və xidmətləri bazarında müştərilər üçün əsas bank olmaq;
- Ölkənin ilk rəqəmsal bankı — Birbank timsalında rəqəmsal bankçılıq və ödənişlər sahəsi üzrə liderliyini qorumaq, həmçinin sahib olduğu böyük maliyyə ekosistemini inkişaf etdirmək;
- Peşəkar kadrları cəlb edərək ölkənin ən yaxşı işəgötürən qurumu kimi tanınmaq.

Bank bütün əməliyyatlarını Azərbaycan Respublikasında həyata keçirir. Ölkə iqtisadiyyatı qlobal enerji bazarlarındakı dəyişikliklərə qarşı həssaslığını qorusa da, 2026-cı il üçün proqnozlar müsbət trayektoriya nümayiş etdirir. Son illər ərzində Azərbaycan hökuməti tərəfindən həyata keçirilən genişmiqyaslı iqtisadi və sosial islahatlar nəticəsində qeyri-neft sektorunun ÜDM-dəki payı əhəmiyyətli dərəcədə artmış və iqtisadiyyatın şaxələndirilməsi yeni mərhələyə qədəm qoymuşdur.

2022–2023-cü illərdəki yüksək inflyasiya təzyiqləri və qlobal təchizat zəncirindəki qeyri-müəyyənliklərdən sonra, 2026-cı ildə Azərbaycan iqtisadiyyatında canlanma müşahidə olunur. Beynəlxalq Valyuta Fondu (IMF) və Moody's kimi agentliklərin proqnozlarına əsasən, 2026-cı ildə ölkədə iqtisadi artımın 2.2% - 3% aralığında sürətlənəcəyi gözlənilir. Xüsusilə qeyri-neft sektorunun 5% ətrafında artması bu inkişafın əsas drayveri hesab olunur. Dövlət Neft Fondunun (ARDNF) və Azərbaycan Respublikası Mərkəzi

Bankının güclü valyuta ehtiyatları xarici şoklara qarşı etibarlı "təhlükəsizlik yastığı" funksiyasını yerinə yetirməkdə davam edir.

Qlobal maliyyə bazarlarında inkişaf etmiş ölkələrin mərkəzi bankları tərəfindən tətbiq edilən monetar siyasətlər hələ də diqqət mərkəzindədir. Bununla belə, Azərbaycan Respublikası Mərkəzi Bankı (bundan sonra ARMB) 2026-cı il 1-cü rüb üzrə Statistik Bülletenınə görə Orta illik İstehlak qiymətləri indeksi üzrə inflyasiya 5.7% səviyyəsindədir və bu makroiqtisadi sabitliyinin göstəricisi kimi qiymətləndirilə bilər. Ölkənin yaşıl enerji layihələrinə investisiya cəlbi, Orta Dəhliz çərçivəsində loqistik potensialın genişləndirilməsi və işğaldan azad edilmiş ərazilərdəki sürətli bərpa işləri iqtisadi dayanıqlığı daha da gücləndirir. Bu strateji addımlar neft-qaz qiymətlərindəki mümkün dalğalanmaların mənfi təsirlərini minimuma endirərək, uzunmüddətli və balanslı inkişaf üçün möhkəm zəmin yaradır.

2023- 2026-cı illərdə ARMB bütün dövr ərzində 1 ABŞ dolları üçün 1,7000 AZN səviyyəsində sabit qalan Azərbaycan manatının sabitliyini qorumağa davam etmişdir. 2025-2026-cı illər ərzində ARMB pul siyasətini yumşaltmış, nəticədə 5 fevral 2026-cı il tarixinə uçot faiz dərəcəsi 6.5%-ədək endirilmişdir.

Bankın rəhbərliyi cari şəraitdə baş verən iqtisadi dəyişiklikləri izləməkdədir və Bankın yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir. Bank cari likvidlik mövqeyini davamlı fəaliyyət göstərməsi üçün yetərli hesab edir.

**2.4 Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

- **“Bir kredit Bank Olmayan Kredit Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyəti (Birkart BOKT)** Emitentin Birkart BOKT-nin nizamnamə kapitalındakı iştirakı 100%-dir. Ünvan: AZ1010, Bakı Şəhəri Nəsimi rayonu, Neftçilər pr., ev 153, 687-ci məhəllə, Port Baku Tower 2. VÖEN: 1404208811
- **“Pasha Technology” Məhdud Məsuliyyətli Cəmiyyəti (PashaTech)** – Emitentin PashaTechin nizamnamə kapitalındakı iştirakı 8,22%-dir. Ünvan: AZ1010, Bakı Şəhəri Nəsimi Rayonu, Neftçilər PR., ev 153. VÖEN: 1404290671
- **“PashaPay” Məhdud Məsuliyyətli Cəmiyyəti** – Emitentin PashaPayin nizamnamə kapitalındakı iştirakı 100%-dir. Ünvan: Bakı, Neftçilər prospekti 153. VÖEN:1300615891
- **“Azərbaycan Kredit Bürosu” Məhdud Məsuliyyətli Cəmiyyəti** – Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50% təşkil edir. Ünvan: Bakı Şəhəri, S.Vurğun Küçəsi 43, VÖEN 1305349901.
- **“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti** – Emitentin QSC-nin nizamnama kapitalında payı 4.76 % təşkil edir. Ünvan: AZ1141, Bakı Şəhəri Yasamal Rayonu, Həsən Bəy Zərdabi Küçəsi., 2A.,VÖEN 1700262271.
- **“Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti** – Emitentin ASC-nin nizamnamə kapitalında payı 0.04% təşkil edir. Ünvan: AZ1005, Bakı Şəhəri Nizami Rayonu, Nizami küç. 69.,VÖEN 9900001881.

**2.5 Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

“BİR EKOSİSTEM” MMC Bankın səhmdar kapitalında onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya malikdir. “BİR EKOSİSTEM” MMC Bankın Nizamnaməsini qəbul etmək, Nizamnaməyə əlavə və dəyişikliklər etmək, Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək, digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək, Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək, Bankın büdcəsini qəbul və təsdiq etmək, Bankın Müşahidə

Şurasının üzvlərini təyin və azad etmək, Müşahidə Şurasının əsasnaməsini təsdiq etmək və Müşahidə Şurası üzvləri ilə əmək münasibətləri barədə qərar vermək kimi səlahiyyətlərə malikdir. "BİR EKOSİSTEM" MMC-nin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərən iştirakçı qismində isə onun nizamnamə kapitalında birbaşa və dolayı yolla iştirak edən "PAŞA Holding" MMC çıxış edir.

**2.6 Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.7 Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri**:

"Ernst & Young Azərbaycan" tərəfindən "Kapital Bank" ASC və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2024-cü il və 31 dekabr 2025-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər, konsolidasiya edilmiş ümumi gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinə dair məlumatlar da daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi aparılmışdır.

Müstəqil auditorun rəyinə əsasən əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2024-cü il və 31 dekabr 2025-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

**2.8 Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

Aşağıdakı cədvəldə 2023, 2024 və 2025ci illər üzrə maliyyə məlumatları konsolidasiya edilmiş maliyyə hesabatları əsasında təqdim edilmişdir və qeyd olunan maliyyə hesabatları audit edilmişdir.

| *Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir* | **31 dekabr 2023-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2024-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2025-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|---|
| *Faiz gəlirləri* | **721,512** | **895,675** | **1,173,779** |
| *Faiz xərcləri* | **(110,350)** | **(234,172)** | **(376,347)** |
| *Xalis faiz gəliri* | **611,162** | **661,503** | **797,432** |
| *Maliyyə aktivləri üzrə kreditin zərər xərci* | **(17,292)** | **(57,946)** | **(111,532)** |
| *Qeyri-faiz gəliri* | **228,944** | **397,044** | **492,080** |
| *Qeyri-faiz xərcləri* | **(458,906)** | **(688,795)** | **(821,004)** |
| *Mənfəət vergisi xərcindən əvvəlki mənfəət* | **363,908** | **311,806** | **356,976** |
| *Mənfəət vergisi xərci* | **(81,805)** | **(72,624)** | **(82,416)** |
| *İl üzrə mənfəət* | **282,103** | **239,182** | **274,560** |
| *İl üzrə digər ümumi gəlir, vergidən sonra* | **2,009** | **480** | **1,686** |
| *İl üzrə cəmi Ümumi gəlir* | **284,112** | **239,662** | **276,246** |
| *Cəmi aktivlər* | **8,810,254** | **11,648,076** | **11,573,501** |
| *Cəmi öhdəliklər* | **7,728,630** | **10,497,818** | **10,240,997** |
| *Cəmi Kapital* | **1,081,624** | **1,150,258** | **1,332,504** |
| *Cəmi öhdəliklər və Kapital* | **8,810,254** | **11, 648,076** | **11,573,501** |

| | | | |
|---|---|---|---|
| *Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri* | **1,330,391** | **1,570,330** | **1,589,083** |

**2.9 Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Dəyişiklik olmamışdır.

**2.10 Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr**:

Likvidlik riski adi və ya fövqəladə şəraitdə ödəniş tarixində Bankın ödənişlə bağlı öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədi ilə Bank müxtəlif mənbələrdən vəsait cəlbini təmin etməklə yanaşı gündəlik olaraq pul vəsaitlərinin hərəkətini və likvidliyin monitorinqini aparır. Pul vəsaitlərinin hərəkəti üzrə daxil olmalarda hər hansı gözlənilməz mənfi hal yarandığı halda likvidlik vəziyyətini tənzimləyə bilməsi üçün Bank asanlıqla satıla bilinən, diversifikasiya olunmuş müxtəlif növ aktivlər üzrə portfelə sahibdir.

Bank likvidlik vəziyyətinə ARMB tərəfindən müəyyən edilmiş likvidlik əmsallarına əsasən nəzarət edir. ARMB-nin banklar üçün müəyyən etdiyi 30% olan minimum likvidlik əmsalı tələbi bank sektoru üzrə formalaşmış təcrübəyə əsaslanan kifayət qədər konservativ ehtiyyat tədbiridir. Kapital bankın ani likvidlik əmsalı 2025-cü il 31 dekabr tarixinə 49.15%, Likvidliyin örtülmə əmsalı isə 137.87% təşkil etmişdir və bu ARMB-nin tələbi olan müvafiq olaraq minimum 30% və 100% həddindən kifayət qədər yuxarıdır. Bunun əsasında qeyd edilə bilər ki, Bankın ödəmə qabiliyyətinə təsir edən və likvidlik əmsalında ani düşüşə səbəb olan hər hansı hadisə baş verməmişdir.

Aşağıdakı cədvəldə diskont edilməmiş öhdəliklər əsasında Bankın maliyyə öhdəlikləri ödəniş tarixinə qalmış müddətlər üzrə təqdim edilmişdir.

| **31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə** | | | | | |
|---|---|---|---|---|---|
| Maliyyə öhdəlikləri | **3 ayadək** | **3-12 ay** | **1-5 il** | **5 ildən çox** | **Cəmi** |
| ARMB və dövlət təşkilatları | **53,116** | **53,656** | **147,857** | **393,923** | **648,552** |
| Kredit təşkilatları | **392,867** | **114,354** | **22,841** | **-** | **530,062** |
| Müştərilər | **6,600,073** | **1,533,331** | **265,390** | **8,432** | **8,407,226** |
| Buraxılmış borc qiymətli kağızları | **10,687** | **132,037** | **98,923** | **301,622** | **543,269** |
| İcarə öhdəliyi | **5,126** | **15,199** | **39,885** | **57,349** | **117,559** |
| Digər | **201,357** | **-** | **-** | **-** | **201,357** |
| Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri | **7,263,226** | **1,848,577** | **574,896** | **761,326** | **10,448,025** |

Bankın öhdəliklərini ödəmək qabiliyyəti öhdəliklərlə eyni müddətə və məbləğdə aktivləri realizə etmək qabiliyyətindən asılıdır. Vəsaitlərin əhəmiyyətli həcmdə hissəsinin vaxtından əvvəl geri çəkilməsi ehtimal olunmur. Belə ki, cari maliyyələşmə və likvidlik səviyyəsinin yaxın gələcəkdə də Bank tərəfindən təmin olunması gözlənilir.

**2.11 Emitentin əsas fəaliyyətlərinin təsviri:**

- Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işinin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;
- Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;
- Sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;

- Öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitlərin Azərbaycan İqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
- Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.
- Emitent, Azərbaycan Respublikasının Qanunvericiliyi və öz lisenziyasına əsasən aşağıdakı fəaliyyət növləri ilə məşğul olur:
    - Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
    - Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
    - Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
    - Klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
    - Ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə veksellləri) buraxılması;
    - Öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin), qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, satın alınması və satılması;
    - Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
    - Qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
    - Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
    - Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
    - Kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
    - Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
    - Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi.

**2.12 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:** Emitentin İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır. İdarə Heyətinin üzvləri Emitentin Müşahidə Şurası tərəfindən 3 ildən çox olmayan müddətə təyin edilirlər və onlar növbəti müddətə yenidən təyin edilə bilərlər. Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Ümumi Yığıncaqda mühüm iştirak payının sahibi olaraq nizamnamə kapitalındakı səhmlərin 77,3328 faizinin mülkiyyətçisi qismində “BİR EKOSİSTEM” MMC çıxış edir. Nizamnaməyə dəyişikliklər edilməsi, Müşahidə Şurası üzvlərinin təyin və azad edilməsi, Bankın satılması, yenidən təşkili, başqa bankın alınması və Bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar yığıncaqda təmsil edilən səhmdarların 75 (yetmiş beş) faiz səs çoxluğu, bütün digər qərarlar isə sadə səs çoxluğu ilə qəbul olunur. Emitentin idarə olunmasına və işinə fəaliyyətinə nəzarəti Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən qanunvericiliyin müvafiq tələblərinə cavab verən səhmdarlardan və/və ya kənar şəxslərdən 3 (üç) il müddətinə seçilən fiziki şəxslərdir. Müşahidə Şurasının üzvləri növbəti

müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1 İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı

**3.2 İstiqrazların valyutası**: Azərbaycan manatı (AZN)

**3.3 İstiqrazların təsbit olunan məhdudiyyətlər**: Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**3.4 İstiqrazların təsbit olunmuş hüquqların təsviri**:

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən bu Prospektin 3.5-ci bəndində müəyyən edilmiş qaydada illik 10 (on) faiz həcmində almaq;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.5 İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 10 faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 30 (otuz) təqvim gününün başa çatması tarixində ödənilir. Sonuncu kupon ödənişi tədavül müddətinin sonunda istiqrazların nominal dəyəri ilə birlikdə ödəniləcəkdir. Qiymətli kağızlar üzrə qiymətli kağız mülkiyyətçilərinə ödənilən məbləğlərin hesablanması və ödənilməsinə dair ödəniş agenti xidməti Milli Depozit Mərkəzi tərəfindən göstərilir.

**3.6 Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təmin edilməmiş istiqrazlardır

**3.7 İstiqrazların geri satın alınma şərtləri**: Tədavül müddəti ərzində istiqrazların geri satın alınması ilə bağlı Emitent tərəfindən öhdəlik nəzərdə tutulmur.

**3.8 Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə kupon gəlirliliyi illik 10 (on) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$\boldsymbol{TF} = \frac{\left(\frac{\boldsymbol{N} * \boldsymbol{D} * \boldsymbol{G}}{\mathbf{360}}\right)}{\mathbf{100}}$$

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər

N – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) manat

D – İstiqrazların illik faiz dərəcəsi: 10 (on)

G – İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti

**3.9 İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı**: Mövcud deyil.

**3.10 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.11 İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza emissiya prospekti və hər bir buraxılış üzrə Yekun Şərtlər dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. Qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması, ticarətinin dayandırılması, delistinqi qaydalarını və onların emitentlərinin bu qaydalar üzrə öhdəliklərinin icrası üzrə məsələlər "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinq" Qaydaları ilə müəyyən edilir. Bu Qaydaya əsasən abunə yazılışına başlanmazdan əvvəl Emitent tərəfindən istiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi ilə bağlı müraciət ediləcəkdir.

İstiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi ilə bağlı müraciət istiqrazların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. İstiqrazların yerləşdirilməsi tamamlandıqdan sonra qeyd olunan Qaydanın 4-cü bəndinə əsasən istiqrazlar müvafiq seqment üzrə listinqə alınacaqdır.

Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

## 4. Risk faktorları

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər)

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

- İqtisadi kiçilmə: İnflyasiya, faiz, valyuta riskləri kimi amillərdən yaranan iqtisadi qeyri-sabitlik ölkə iqtisadiyyatında kiçilməyə səbəb ola bilər. Bu zaman ölkədə alıcılıq qabiliyyəti aşağı düşə və bank məhsullarının satışı üzərində mənfi təsir yarada bilər.
- Təbii fəlakətlərin baş verməsi (fors-major hallar): Təbii fəlakətlərin baş verməsi də öz növbəsində iqtisadi şok yaradaraq ölkədə alıcılıq qabiliyyətinin aşağı düşməsi, bankın əməliyyatlarına zərər verə biləcək sistem pozuntuları, kontragentlərin öz öhdəliklərini yerinə yetirə bilməməsi ilə nəticələnə bilər.
- Tənzimləyici və reqyulativ risklər: İnflyasiyanın tənzimlənməsi məqsədi ilə ARMB sərtləşdirilmiş monetar siyasəti alətlərindən istifadə edərək uçot faiz dərəcəsinin, məcburi-ehtiyyat normasının kəskin artırlması ilə bağlı qərar qəbul edə bilər. Bu kimi sərtləşdirilmiş monetar siyasətin davam etməsi bankın likvidliyinə mənfi təsir yarada bilər.
- Kredit riski və aktiv keyfiyyətinin pisləşməsi: Azərbaycan iqtisadiyyatının əsas sektorlarında mənfi inkişaflar və ya bir və ya bir neçə iri borcalanın öhdəliklərini yerinə yetirməməsi qeyri-işlək kreditlərin artmasına, dəyərsizləşmə xərclərinin yüksəlməsinə və Bankın aktiv keyfiyyətinə, maliyyə vəziyyətinə və fəaliyyət nəticələrinə əhəmiyyətli mənfi təsir göstərə bilər.
- Likvidlik və maliyyələşmə riski: Depozitlərin əhəmiyyətli şəkildə geri çəkilməsi, daxili maliyyə bazarında likvidliyin azalması və ya topdansatış və alternativ maliyyələşmə mənbələrinə çıxışın məhdudlaşması Bankın fəaliyyətini maliyyələşdirmək imkanını məhdudlaşdıra, maliyyələşmə xərclərini artıra və likvidlik mövqeyinə və maliyyə nəticələrinə mənfi təsir göstərə bilər.
- Bazar və valyuta riski: Bank faiz dərəcələrinin və valyuta məzənnələrinin dəyişməsinə məruz qalır ki, bu da onun xalis faiz gəlirlərinə, kapital adekvatlığına və maliyyə nəticələrinə təsir göstərə bilər. Bank aktiv-passiv idarəetməsini, hedcinq və risk limitləri çərçivələrini tətbiq etsə də, bazarda əhəmiyyətli və ya uzunmüddətli dəyişkənlik qiymətləndirmə itkilərinə, gəlirliliyin azalmasına və gəlirlərin dəyişkənliyinin artmasına səbəb ola bilər.
- Əməliyyat, texnologiya və kibertəhlükəsizlik riski: Bank bank fəaliyyəti üçün xarakterik əməliyyat risklərinə, o cümlədən informasiya texnologiyaları sistemləri, kibertəhlükəsizlik və məlumatların qorunması ilə bağlı risklərə məruz qalır. Bank rəqəmsal kanallarını və xidmətlərini genişləndirdikcə, kibercumlar, məlumat sızmaları, sistem nasazlıqları və ya xidmət fasilələri riski artır. Hər hansı ciddi insident maliyyə itkilərinə, tənzimləyici sanksiyalara və reputasiya zədələnməsinə səbəb ola bilər.
- Reputasiya və uyğunluq riski: Bankın fəaliyyəti güclü reputasiyanın qorunmasından və pulların yuyulmasına qarşı mübarizə, sanksiyalar və biznes davranışı ilə bağlı qanunlar daxil olmaqla tətbiq olunan normativ tələblərə riayət edilməsindən asılıdır. Daxili nəzarət, uyğunluq sistemləri və ya korporativ idarəetmədə hər hansı çatışmazlıq, yaxud mənfi media yayımı Bankın reputasiyasına zərər vura, müştəri və tərəfdaş etimadını azalda və onun fəaliyyətinə və maliyyə nəticələrinə əhəmiyyətli mənfi təsir göstərə bilər.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Bu istiqrazların buraxılışı mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə bankın aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək məqsədi ilə həyata keçiriləcəkdir.

Emissiyadan əldə olunan vəsait bankın strateji hədəflərinin reallaşdırılması, bazar nüfuzunun və bazar payının artırılması, eləcə də xarici mühitdə yaranacaq hər cür dəyişikliyə cəld və effektiv

uyğunlaşmanın təmini üçün lazımi resursların və mexanizimlərin təkmilləşdirilməsinə investisiya olacaq. Əlavə olaraq, ölkə daxilində sərfəli və keyfiyyətli bankçılıq xidmətləri təklif etməklə regionlarda real iqtisadiyyatın maliyyələşdirilməsi, bölgələrdə iqtisadi rifahın və məşğulluğun artırılmasına müsbət təsir göstərəcəkdir. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşdırılmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacaqdır.

**5.2. Təklifin şərtlərinin təsviri:**

5.2.1 **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** Baza emissiya prospekti maliyyə bazarlarına nəzarət orqanı (AR Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hər bir istiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixlərinin təyin olunma qaydası Yekun Şərtlərdə təqdim olunacaq. Yekun şərtlər ARMB tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışına 2 (iki) ay ərzində başlanılacaq və abunə yazılışı isə 30 (otuz) təqvim günü ərzində həyata keçiriləcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günündən çox olmamaq şərti ilə tamamlanacaqdır. Ümumilikdə qiymətli kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır.

5.2.2 İstiqrazlara abunə yazılışının qaydası: İstiqrazlara abunə yazılışı investorlar tərəfindən sifarişin Bakı Fond Birjasının üzvü olan investisiya şirkətlərinə təqdim edilməsi ilə həyata keçirilir. Abunə yazılışı üçün sifariş investor tərəfindən imzalanmalıdır. Hüquqi şəxslərin təqdim etdikləri sifariş onların səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və möhürlənməlidir. Sifariş təqdim edilərkən onun üzərində investisiya şirkətlərinin səlahiyyətli şəxsi tərəfindən sifarişin qəbul edildiyi tarix, vaxt, qeydiyyat nömrəsi, sifarişi qəbul edən şəxsin adı, soyadı qeyd edilir və uçota alınır.

Abunə yazılışı sifarişləri uçota alınaraq, abunə yazılışı müddətində Anderrayter tərəfindən toplanır. Bakı Fond Birjasında istiqrazların yerləşdirilməsindən əvvəl toplanmış abunə yazılışı sifarişləri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC tərəfindən investorlar arasında bölüşdürülür. "Kapital Bank" ASC istiqrazlarının sayının (təklif), abunə yazılmış investorların sifarişləri (tələb) arasında bölüşdürülməsini (allocation) aşağıdakı qaydalara uyğun olaraq həyata keçirəcəkdir. İnvestorlar fiziki və ya hüquqi şəxslər olmaqla 2 (iki) qrupa bölünür. İstiqrazların bölüşdürülməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

1. Fiziki şəxslərin abunə yazılışı sifarişi
2. Hüquqi şəxslərin abunə yazılışı sifarişi

Birinci addımda, fiziki şəxslərin tələbləri təklifdən az olarsa, hər bir fiziki şəxsin tələbi tam ödəməklə icra edilir. Fiziki şəxslərin tələbləri təklifdən çox olarsa, təklif edilən istiqrazların sayının fiziki şəxslərin tələbinə olan nisbəti (əmsal) hesablanır. Hər bir fiziki şəxsin abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində fiziki şəxs olan investorlara istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, fiziki şəxslərin sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (ilk sifarişdən növbətiyə doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir. İstiqrazların bölüşdürülməsi zamanı aşağı yuvarlaqlaşdırma edildikdə hər bir fiziki şəxsə minimum 1 (bir) istiqraz alışı təmin edilməsi gözləniləcəkdir.

Növbəti addımda, hüquqi şəxslərin tələbləri birinci addımdan sonra qalan və bölüşdürülməmiş istiqraz sayından (təklif) az olarsa, hər bir hüquqi şəxsin tələbi tam ödəməklə icra edilir. Hüquqi şəxslərin tələbləri birinci addımdan sonra qalan və bölüşdürülməmiş istiqraz sayından çox olarsa,

bölüşdürülməmiş istiqraz sayının hüquqi şəxslərin tələbinə olan nisbəti (əmsal) hesablanır. Hər bir hüquqi şəxsin abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində hüquqi şəxs olan investorlara istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, hüquqi şəxslərin sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (ilk sifarişdən növbətiyə doğru) nəzərə alınaraq yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir. İstiqrazların bölüşdürülməsi zamanı aşağı yuvarlaqlaşdırma edildikdə hər bir hüquqi şəxsə minimum 1 (bir) istiqraz alışı təmin edilməsi gözləniləcəkdir.

5.2.3 **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir. İstiqrazın dəyəri pulla ödənilir və bu pul vəsaiti emitentin açdığı müvəqqəti cari hesabda ("PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti) saxlanılır. Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların ilk mülkiyyətçilərinin depo hesabına köçürüldüyü andan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

5.2.4 **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazların Abunə yazılışının qiyməti - Abunə yazılışı dövründə İnvestorlar tərəfindən sifarişlərin verilmə tarixindən və həcmindən asılı olmayaraq, istiqrazlar nominal qiyməti ilə yəni, 1 istiqraz 100 (bir yüz) manata təklif olunur.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB).** Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, listinqdə saxlanılması, yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.

Bakı Fond Birjasının "Kapital Bank" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**"PAŞA Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti**

"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC 09.03.2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş İSN/L-640/2016, 088806 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. "Kapital Bank" ASC tərəfindən buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə emitentdən

xidmət haqqı tutacaqdır. "Kapital Bank" ASC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin marağı kommersiya xarakterlidir.
Emissiyada iştirak edən şəxslərin maraqlarının toqquşması halı mövcud deyildir.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

Fiziki şəxslərin ilkin bazar üzrə istiqraz alışı zamanı ödəməli olduğu xərclərin (Bakı Fond Birjasının komissiyası, investisiya şirkətinin komissiyası, Milli Depozit Mərkəzidə hesab açılışı xərci) Emitent tərəfindən qarşılanması ilə bağlı məlumat hər bir buraxılış üzrə Yekun Şərtlərdə açıqlanacaq.

## İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

### 6. Emitentin auditorlar barədə məlumat

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl | Auditorun adı | Auditorun ünvanı | Auditorun üzv olduğu təşkilat |
|---|---|---|---|
| **2023** | Ernst & Yanq Holdinqs (SiAyEs) | Bakı şəhəri, Neftçilər pr., 153, Port Baku, 9-cu mərtəbə | Ernst & Young Global Limited |

| | | | |
|---|---|---|---|
| | Bi.Vi. | | |
| **2024** | Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi. | Bakı şəhəri, Neftçilər pr., 153, Port Baku, 9-cu mərtəbə | Ernst & Young Global Limited |
| **2025** | Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi. | Bakı şəhəri, Neftçilər pr., 153, Port Baku, 9-cu mərtəbə | Ernst & Young Global Limited |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə, məlumat:** Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi baş verməyib.

## 7. Emitent barədə məlumat

**7.1 Emitentin tam adı, təşkilati-hüquqi forması**: "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti

**7.2 Emitentin dövlət qeydiyyatının rekvizitləri**: Emitent 10 iyul 2006-cı il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən hüquqi şəxsin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında 19 nömrəli şəhadətnamə ilə "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti adı ilə qeydiyyata alınmışdır. Emitent Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının (hazırda AR Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilmiş 14 may 2025-ci il tarixli 244 nömrəli bank lisenziyası (Qiymətli metallarla əməliyyatların aparılmasına qoyulmuş məhdudiyyətin ləğv edilməsi ilə əlaqədar 21 avqust 2006-cı il tarixli Lisenziyanın əvəzinə) əsasında fəaliyyət göstərir. Kapital Bank VÖEN: 9900003611

**7.3 Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** 11 fevral 1992-ci il tarixində Azərbaycan Respublikasının Bankına çevrilmiş SSRİ Əmanət Bankının bazasında Azərbaycan Respublikasının Əmanət Bankı formalaşdırılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 fevral 2000-ci il tarixli 40 "s" nömrəli Sərəncamı ilə Əmanət Bankının, Azərbaycan Aqrar-Sənaye Bankının və Azərbaycan Sənaye İnvestisiya Bankının birləşdirilməsi nəticəsində Azərbaycan Birləşmiş Universal Səhmdar Bankı (bundan sonra – BUSBank) yaradılmışdır. 29 dekabr 2004-cü il tarixində "BUSBank"ın səhmdarlarının növbədənkənar iclasının Qərarına əsasən "BUSBank"ın adı dəyişdirilərək "Kapital Bank" Səhmdar Bankı adlandırılmışdır.

10 iyul 2006-cı il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən hüquqi şəxsin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında 19 nömrəli şəhadətnamə ilə Emitent "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır.

**7.4 Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr., ev 153, 687-ci məhəllə, Port Baku Tower 2. office@kapitalbank.az www.kapitalbank.az (+99412) 598-12-95

**7.5 Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti. "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, listinqdə saxlanılması, yerləşdirilməsi, həmçinin, təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində

qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də pay bazarı, borc alətləri bazarı, repo bazarı, törəmə maliyyə alətləri bazarı mövcuddur.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

## 8. Emitentin biznesinin icmalı

**8.1 Emitentin əsas fəaliyyət istiqaməti**: Emitentin əsas fəaliyyət istiqaməti bank fəaliyyətidir. Eyni zamanda, milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericiliklə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

**8.2 Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri**: Əsas məqsədin icrası ilə əlaqədar aşağıdakı fəaliyyətləri həyata keçirir:

- Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işinin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;
- Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;
- Sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;
- Öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitlərin Azərbaycan İqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
- Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.
- Emitent, Azərbaycan Respublikasının Qanunvericiliyi və öz lisenziyasına əsasən aşağıdakı fəaliyyət növləri ilə məşğul olur:
  - tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
  - kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
  - fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
  - klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
  - ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə veksellləri) buraxılması;
  - öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin), qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, satın alınması və satılması;
  - öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
  - qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
  - öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

- maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi.

**8.3 Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

**Birbank:** Birbank tətbiqinin inkişaf proqramının davamı olaraq aşağıdakı məhsul və proseslər daha da təkmilləşdirilmişdir.

**Ödənişlər:**

- Mobil operatorlar; kommunallar, internet və televiziya, telefon, dövlət ödənişləri, sığorta, xeyriyyəçilik, çatdırılma xidmətləri, kredit ödənişləri, təhsil müəssəsi, parkinq, bank xidmətləri və .s ödənişlərin həyata keçirilməsinə imkan yaradan funksionallıqlar;
- Ödəniş şablonu – istifadəçilərin Birbank ilə həyata keçirdikləri ödənişləri yadda saxlamağa və daha da ödənişlərin həyata keçirilməsinə daha da asanlaşdımağa şərait yaradan funksionallıqlar

**Köçürmələr:**

- Birbank Cashback debet kartı ilə pulsuz nağdlaşdırma və köçürmə;
- Bütün beynəlxalq bank kartlarına və ölkədaxili hesablara pul köçürmələri;
- Cash by Code ilə köçürmələr;
- Mobil nömrə ilə Birbank istifadəçilərinə köçürmələr;
- Pul köçürmə sistemləri (Zolotoya Korona, Western Union, Xəzri beynelxalq ödəniş sistemi) ilə pul köçürmələri.

**Bonuslar:**

- İstifadəçilər ödənişlər edərək Birbank bonuslar hesabına Keşbeklər, Umico Bonusları, ƏDV və ya Millər toplaya bilərlər. Geniş partnyor şəbəkəsi ilə endirimli, taksitlə məhsul əldə etmək imkanı qazana və fürsətlərlədən istifadə bilərlər.

**Təmassız ödəniş üsulları:**

- NFC: telefonu POS terminala toxundurmaqla;
- Apple Pay: (Visa və MasterCard) taksit və debit kartını elektron pul kisələrinə əlavə etməklə;
- QR Pay: ödəniş çeklərindəki və ya kassadakı QR kodu oxutmakla ödənişlərin daha təhlükəsiz və təmassız edilməsi.

**Rəqəmsal kart:**

- İstifadəçilər Kapital Bank filiallarına gəlmədən bir neçə saniyədə pulsuz karta sahib ola bilərlər. Eyni zamanda, Digital Card ilə Birbank-dan istifadə edə, onlayn ödənişlər, pulsuz köçürmələrdən yararlana bilərlər.
- Rəqəmsal bankçılıq
- Kart və kredit sifarişi – İstifadəçilər bank məhsulları bölməsindən istəyə uyğun kartı və ya nağd krediti onlayn şəkildə 7/24 əldə edə bilərlər. Nağd kredit və taksit limiti dərhal Birbank tətbiqində əks olunur.
- Onlayn növbə - Tətbiqin online növbə bölməsindən bank xidmətini seçib, filial, tarix və saatı qeyd etməklə növbəni götürmə imkanı

**Birbank partnyorları:**

- İstifadəçilər mağaza, restoran və digər xidmətləri ilə Birbank partnyorları səhifəsindən tanış ola, eyni zamanda, daha sərfəli kampaniyalar, keşbek, mil və taksit imkanları ilə yaxından tanış ola bilərlər.

**Digər xidmətlər:**

- **BirBank Biznes:** Son bir neçə ildə Emitent sahibkarlara təqdim etdiyi məhsul və xidmətlərin rəqəmsallaşması istiqamətində bir sıra böyük layihələr icra edib. Bankın qarşısına qoyduğu əsas hədəf isə biznes sahiblərinə tam rəqəmsal bank xidmətləri ilə təqdim etməkdir. Kapital Bank sahibkarlar üçün yeni Birbank Biznes rəqəmsal bankçılıq sistemini istifadəyə verib. Hüquqi şəxs və fərdi sahibkarların istifadəsində olan Birbank Biznes-də qeydiyyat prosesi asanlaşdırılmışdır. Belə ki, ölkədə ilk dəfə olaraq fərdi sahibkarlar biznes hesab açmaq üçün yeni "Üz identifikasiyası vasitəsilə qeydiyyat" funksiyasından yararlana bilərlər. 2022–2026-cı illəri əhatə edən strateji dövrdə Emitent üçün ən prioritet istiqamətlərdən biri rəqəmsal xidmətlərin, xüsusilə də mobil bankçılığın inkişafıdır. Pərakəndə sahədə olduğu kimi, biznes və korporativ seqmentdə təqdim edilən məhsul və xidmətlərin bir çoxu artıq onlayna keçirilib və bu proses davam etməkdədir. Hazırda sahibkarlar tərəfindən həyata keçirilən köçürmə və ödənişlərin 99%-i rəqəmsal platformalar üzərindən yerinə yetirilir. Maliyyələşmə və biznes məhsulları üzrə müraciətlərin 100%-nin onlayn kanallar vasitəsilə qəbul edilməsi imkanı yaradılıb. Tender və nağd təminatlı qarantiyaların əldə olunması əvvəldən axıra kimi, yəni tamamilə onlayn olaraq Birbank Biznes üzərindən müştərilərin istifadəsinə verilib. Sahibkar hesablarına gəldikdə isə onların 95%-dən çoxu məsafədən açılır. Azərbaycanda mikrokreditləri tam onlayn verməyə də ilk dəfə məhz Kapital Bank başlayıb. Bu gün mikrokreditlərin təxminən 50%-i rəqəmsal kanallar vasitəsilə rəsmiləşdirilir.

**8.4 Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

**Bank sektoru cari vəziyyəti:** ARMB-nin 2026-cı ilin mart ayının sonu üzrə statistik bülletenınə əsasən fəaliyyətdə olan bankların cəmi aktivləri 57,960.8 mln. manat, cəmi öhdəlikləri 50,292.5 mln. manat, balans kapitalı 7,668.3 mln. manat olmuşdur. 2026-cı ilin mart ayında bank sektorunun cəmi aktivləri, cəmi öhdəlikləri və balans kapitalı ötən ilin müvafiq ayı ilə nisbətdə 5.66%, 4.86% və 11.22% artmışdır. Hesabat ayında bankların kredit portfeli 0.6% və ya 171.5 mln. manat artaraq 30,290.3 mln. manat olmuşdur. Kredit portfelinin strukturu: ı) biznes kreditləri – 53.5% (16,214.8 mln. manat); ıı) istehlak kreditləri – 31.3% (9,490.9 mln. manat) və ııı) ipoteka kreditləri – 15.2% (4,584.6 mln. manat). 2026-cı ilin I rübü ərzində banklar 372 mln. manat xalis mənfəət, 521 mln. manat məbləğində əməliyyat mənfəəti əldə etmişlər..

**Əməliyyat mühiti:** Moody's araşdırma və reytinq agentliyi tərəfindən təqdim olunan hesabatlara əsasən Azərbaycan banklarının iqtisadi və əməliyyat şəraiti yüksək neft və qaz qiymətləri fonunda qeyri-neft iqtisadiyyatının dövlət xərcləri hesabına artımı ilə dəstəklənərək əlverişli olaraq qalacaq.

2026-cı ildə ÜDM artımın **3%**-ə çatacağı, 2027-ci ildə isə bir qədər stabilləşərək **2.5%** olacağı gözlənilir

**Texnoloji infrastruktur:** Texnologiyanın sürətli inkişafı həm dünyada, həm də Azərbaycanda yeni innovativ şirkətlərin yaranmasına və xidmət sahələrində, xüsusən də bank sektorunda rəqabətin artmasına səbəb olur. Son illər Azərbaycanda startap mühitinin formalaşması və inkişafı maliyyə xidmətlərinin göstərilməsində yeni innovativ həllərin tətbiqi imkanlarını artırır.

**8.5 Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil.

## 9. Digər təşkilatlarda iştirak

### 9.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:

- **"Bir kredit Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (Birkart BOKT)** Emitentin Birkart BOKT-nin nizamnamə kapitalındakı iştirakı 100%-dir. Ünvan: AZ1010, Bakı Şəhəri Nəsimi rayonu, Neftçilər pr., ev 153, 687-ci məhəllə, Port Baku Tower 2. VÖEN: 1404208811

- **“Pasha Technology” Məhdud Məsuliyyətli Cəmiyyəti (PashaTech)** – Emitentin PashaTechin nizamnamə kapitalındakı iştirakı 8,22%-dir. Ünvan: AZ1010, Bakı Şəhəri Nəsimi Rayonu, Neftçilər PR., ev 153. VÖEN: 1404290671
- **“PashaPay” Məhdud Məsuliyyətli Cəmiyyəti** – Emitentin PashaPayin nizamnamə kapitalındakı iştirakı 100%-dir. Ünvan: Bakı, Neftçilər prospekti 153. VÖEN:1300615891
- **“Azərbaycan Kredit Bürosu” Məhdud Məsuliyyətli Cəmiyyəti –** Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50% təşkil edir. Ünvan: Bakı Şəhəri, S.Vurğun Küçəsi 43, VÖEN 1305349901.
- **“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti –** Emitentin QSC-nin nizamnama kapitalında payı 4.76% təşkil edir. Ünvan: AZ1141, Bakı Şəhəri Yasamal Rayonu, Həsən Bəy Zərdabi Küçəsi., 2A.,VÖEN 1700262271.
- **“Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti** – Emitentin ASC-nin nizamnamə kapitalında payı 0.04% təşkil edir. Ünvan: AZ1005, Bakı Şəhəri Nizami Rayonu, Nizami küç. 69.,VÖEN 9900001881.

**9.2. Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:**
“BİR EKOSİSTEM” MMC Bankın səhmdar kapitalında onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya malikdir. “BİR EKOSİSTEM” MMC Bankın Nizamnaməsini qəbul etmək, Nizamnaməyə əlavə və dəyişikliklər etmək, Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək, digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək, Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək, Bankın büdcəsini qəbul və təsdiq etmək, Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, Müşahidə Şurasının əsasnaməsini təsdiq etmək və Müşahidə Şurası üzvləri ilə əmək münasibətləri barədə qərar vermək kimi səlahiyyətlərə malikdir. “BİR EKOSİSTEM” MMC-nin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərən iştirakçı qismində isə onun nizamnamə kapitalında birbaşa və dolayı yolla iştirak edən “PAŞA Holding” MMC çıxış edir.

## 10. Tendensiyalar barədə məlumat

**10.1 Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin baza emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Mənfi dəyişiklik baş verməyib.

**10.2 Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Daim inkişaf edən rəqəmsal transformasiya dünyasında Emitent aşağıdakı strateji məqsədləri hədəfləmişdir:

- Pərakəndə bank məhsulları və xidmətləri bazarında liderliyi qorumaq;
- İri dövlət layihələri çərçivəsində daha geniş əməkdaşlıqlar qurmaq;
- KOS və mikro sahibkarlıq üzrə bank məhsulları və xidmətləri bazarında müştərilər üçün əsas bank olmaq;
- Ölkənin ilk rəqəmsal bankı — Birbank timsalında rəqəmsal bankçılıq və ödənişlər sahəsi üzrə liderliyini qorumaq, həmçinin sahib olduğu böyük maliyyə ekosistemini inkişaf etdirmək;
- Peşəkar kadrları cəlb edərək ölkənin ən yaxşı işəgötürən qurumu kimi tanınmaq.

Bank bütün əməliyyatlarını Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan Respublikasının iqtisadiyyatı neft və qaz qiymətlərinə xüsusilə həssasdır. Son illər ərzində Azərbaycan

Respublikasının hökuməti daha tarazlı iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün əhəmiyyətli dərəcədə iqtisadi və sosial islahatlara başlamışdır.

Bir çox ölkələrdə inflyasiya son onilliklərin ən yüksək həddinə çatmışdır. Bu şəraitdə inkişaf etmiş ölkələr balanslarını azaltmaq və faiz dərəcələrini aqressiv şəkildə artırmaqla pul siyasətlərini sərtləşdirməyə çalışırlar. Belə sərtləşmə nəticəsində qlobal tənəzzül baş verərsə, neft-qaz məhsullarına tələbat da artacaq ki, bu da Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərə bilər.

2023- 2026-cı illərdə ARMB bütün dövr ərzində 1 ABŞ dolları üçün 1,7000 AZN səviyyəsində sabit qalan Azərbaycan manatının sabitliyini qorumağa davam etmişdir. 2025-2026-cı illər ərzində ARMB pul siyasətini yumşaltmış, nəticədə 5 fevral 2026-cı il tarixinə uçot faiz dərəcəsi 6.5%-ədək endirilmişdir.

Bankın rəhbərliyi cari şəraitdə baş verən iqtisadi dəyişiklikləri izləməkdədir və Bankın yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir. Bank cari likvidlik mövqeyini davamlı fəaliyyət göstərməsi üçün yetərli hesab edir.

## 11. Gəlir proqnozu:

Mövcud deyil.

## 12. Emitentin idarəetmə və nəzarət orqanları

Bankın əsas idarəetmə orqanı Bankın İdarə Heyətidir. Bankın əsas nəzarət orqanı Bankın Müşahidə Şurasıdır.

**12.1** Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar: adı, soyadı, atasının adı və funksiyaları

**Bankın Müşahidə Şurası barədə məlumat:**

| № | Ad, soyad, ata adı | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1. | Fərid Məmmədov Usad oğlu | Müşahidə Şurasının sədri | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 2. | Cəlal Qasımov Ələkbər oğlu | Müşahidə Şurasının üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 3. | Aleksey Aleksandroviç Marey | Müşahidə Şurasının üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 4. | Oqtay Həsənov Arif oğlu | Müşahidə Şurasının üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati |

| | | | |
|---|---|---|---|
| | | | strukturuna dair qərarlar qəbul etmək |
| 5. | Marqarita Koşman | Müşahidə Şurasının Müstəqil üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |

**Bankın İdarə Heyəti barədə məlumat**

| № | Ad, soyad, ata adı | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1. | Fərid Hüseynov Arif oğlu | İdarə Heyətinin sədri, Baş icraçı direktor | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |
| 2. | Cavid Mirzəyev Akif oğlu | İdarə Heyətinin Sədrinin 1-ci müavini | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |
| 3. | Fərid Hidayətzadə Səbuhi oğlu | İdarə Heyəti Sədrinin müavini, Baş Korporativ Satış İnzibatçısı | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |
| 4. | Ağarza Baxşiyev Yaşar oğlu | İdarə Heyətinin üzvü,<br>Baş Risk İnzibatçısı | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və |

| | | | |
|---|---|---|---|
| | | | Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |
| 5. | Kamal Abdullayev Nadir oğlu | İdarə Heyətinin üzvü, Baş Komplayens İnzibatçısı | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |
| 6. | Calal Orucov Cümşüd oğlu | İdarə Heyəti Sədrinin müavini | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |
| 7. | Məmmədov Emin Ağaverdi oğlu | İdarə Heyətinin üzvü, Baş Maliyyə İnzibatçısı | Bankın idarə olunması və fəaliyyətini hayata keçirir Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlarinə aid olmayan səlahiyyətlər aiddir. İdarə Heyətinin səlahiyyətləri Azarbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə Heyətinin əsasnaməsi ilə müəyyən olunur. |

Emitentin Nizamnaməsinin 6.2-ci bəndinə əsasən Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin hər bir üzvü özünün və ailə üzvlərinin birbaşa və ya dolayısı ilə malik ola bildiyi mühüm kommersiya maraqlarını Bankın Müşahidə Şurası qarşısında açıqlayır. Belə məlumatlar həmin şəxslər Bankın idarəetmə orqanlarının üzvü seçildikdə və sonrakı dövrlərdə Bankın daxili qaydalarına müvafiq olaraq açıqlanır. Həmin Nizamnamənin 6.5-ci bəndinə əsasən Emitentin Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, habelə Bankın struktur bölmələrinin rəhbərləri özlərinin,

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, bu Məcəllə, “Banklar haqqında” və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.

**12.2 Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat.**

Emitentin ali orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır.
"PAŞA Holding" Məhdud Məsuliyyətli Cəmiyyəti – 3.7482 %,
“BİR EKOSİSTEM” Məhdud Məsuliyyətli Cəmiyyəti – 77.3328 %
"ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti - 0.0037 %,
"BLESS" Məhdud Məsuliyyətli Cəmiyyəti - 2.8185 %,
"PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti - 7.523 %,
"PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti - 3.7615 %,
"REVERİ" Məhdud Məsuliyyətli Cəmiyyəti - 2.8185 % və Milli Depozit Mərkəzinin 8 may 2026-cı il tarixli reyestrində göstərilən digər şəxslər Bankın səhmdarlarıdır.

Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Bankın Nizamnaməsini qəbul etmək, Nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Bankın reqlamentini qəbul etmək, reqlamentə əlavə və dəyişikliklər etmək;
- Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə - Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
- Digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək, Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
- Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
- Bankın büdcəsini qəbul və təsdiq etmək;
- Bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;
- Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, Müşahidə Şurasının əsasnaməsini təsdiq etmək və Müşahidə Şurası üzvləri ilə əmək münasibətləri barədə qərar vermək;
- Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adından və Bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
- Bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;

- Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam verməK, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;
- Nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, Bank səhmlərinin buraxılması müddət və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
- Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;
- Bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
- “Banklar haqqında” Azərbaycan Respublikası qanununun tələbləri nəzərə alınmaqla, Bankın inzibatçılarının işə götürülməsi müddət və şərtlərini müəyyən etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi və Bankın Nizamnaməsi ilə Səhmdarların Ümumi Yığıncağının səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.

Emitentin Nizamnaməsi ilə müvafiq səlahiyyətlər Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün Bankın Müşahidə Şurasına verilmişdir.

**13. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar**:

**13.1 Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, ünvanları və vətəndaşlığı:**

| Səhmdar | Hüquqi şəxsin olduğu yer, ünvanı və poçt indeksi göstərilməklə | Adi Səhm sayı | Emitentin Nizamnamə Kapitalında faiz nisbəti (faizlə) |
|---|---|---|---|
| “BİR EKOSİSTEM” Məhdud Məsuliyyətli Cəmiyyət | Azərbaycan Respublikası, AZ1010, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, NEFTÇİLƏR PR., ev.153, "PORT BAKU TOWERS-2" | 16 593 164 | 77.3328% |

**13.2 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirləri təsviri:**

Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının “Banklar haqqında” Qanununun 40.3-cü maddəsinə əsasən Bankların aidiyyəti şəxslərə digər müştərilərdən fərqli olaraq güzəştli kreditlərin verilməsi və ya güzəştli şərtlərlə digər əməliyyatların aparılması qadağandır. Eyni zamanda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49.1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

Emitentin idarə olunmasına və işinə fəaliyyətinə nəzarəti Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən qanunvericiliyin müvafiq tələblərinə cavab verən səhmdarlardan və/və ya kənar şəxslərdən 3 (üç) il müddətinə seçilən fiziki şəxslərdir. Müşahidə Şurasının üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir.

**13.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat**: Emitentin Nizamnaməsinin 11.2.2-ci maddəsinə əsasən Bankın Səhmdarları Səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestr saxlayıcısına və Banka 10 (on) təqvim günü ərzində yazılı bildiriş verməlidir.

## 14. Emitentin maliyyə məlumatları

**14.1 Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** "Kapital Bank" ASC-nin son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları bu baza emissiya prospektində məlumat verilmişdir: Maliyyə hesabatları üçün link: https://www.kapitalbank.az/reports

**Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat**
**31 dekabr 2025-cü il tarixinə**
*(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | ***2025*** | ***2024*** |
|---|---|---|
| **Aktivlər** | | |
| Nağd pul vəsaitləri və ekvivalentləri | 1,589,083 | 1,570,330 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | 1,704,949 | 1,552,754 |
| İnvestisiya qiymətli kağızları | 2,600,869 | 2,976,401 |
